"NAXÇIVAN" UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2019, № 1
"NAKHCHIVAN" UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2019, № 1
УНИВЕРСИТЕТ "НАХЧЫВАН"/ НАУЧНЫЕ ТРУДЫ/ 2019, № 1

**UOT 338 39.71.02**

**DİLSUZ QASIMOV**
"Naxçıvan" Universiteti
dilsuzqasimov1949@gmail.com

# REGİONAL İNKİŞAFDA İDARƏETMƏ SUBYEKTLƏRİNİN QARŞILIQLI ƏLAQƏLƏRİNİN TƏŞKİLİ İSTİQAMƏTLƏRİ

*İdarəetmə subyektlərin maraqlarının razılaşdırılması üçün dövlət siyasətinin bələdiyyələrin və təsərrüfat subyektlərinin siyasəti ilə əlaqələndirilməsini təmin edəcək xüsusi institutların və prosedураların işlənib hazırlanması mexanizmlərinin yaradılması nəzərdə tutulur. Məqalədə maraqların razılaşdırılmasının belə bir mexanizminin işlənib hazırlanması zamanı regional inkişafın idarə olunmasının subyektləri arasında qarşılıqlı fəaliyyət siseminin formalaşması araşdırılmışdır.*

**Açar sözlər:** *Regional inkişaf, idarəetmə subyektləri, dövlət siyasəti, əlaqələndirmə, qarşılıqlı əlaqə*

**A**zərbaycanda regional siyasət çərçivəsində həll olunmalı ən vacib məsələlərdən biri strateji regional sosial tərəfdaşlıq sisteminin formalaşdırılmasıdır. Bu gün regional inkişafın dövlət hakimiyyət orqanları ilə yanaşı öz inkişaf siyasətini formalaşdırmaq hüququna malik yerli özünüidarəetmə orqanlarından və biznes strukturlarından ibarət yeni subyektləri meydana gəlmişdir. Burada əsas vəzifələrdən biri bu subyektlərin maraqlarının razılaşdırılmasından ibarət olmalıdır. Bu məsələnin həlli dövlət siyasətinin bələdiyyələrin və təsərrüfat subyektlərinin siyasəti ilə əlaqələndirilməsini təmin edəcək xüsusi institutların və prosedurаların işlənib hazırlanması ilə bağlıdır. Maraqların razılaşdırılmasının belə bir mexanizminin işlənib hazırlanması zamanı regional inkişafın idarə olunmasının subyektləri arasında qarşılıqlı fəaliyyət siseminin formalaşmasına xüsusi diqqət verilməlidir. Burada söhbət inkişaf prosesinin subyektləri arasında münasibətlərin yalnız elə dəyişdirilməsindən gedir ki, bu münasibətlər idarəetmə subyektlərinin potensiallarının qarşılıqlı gücləndirilməsinə, inkişafın nəticələrində marağının və məsuliyyətinin artırılmasına stimullaşdırıcı təsir göstərə bilsin [2]. Dövlət maraqlarının, şəxsi maraqların, yerli icmaların və cəmiyyətin maraqlarının əlaqələndirilməsini (razılaşdırılmasını) təmin edəcək bu mexanizm sosial tərəfdaşlıq ola bilər. Bu mənada sosial tərəfdaşlığa sosial subyektlərin qarşılıqlı fəaliyyətinin universal forması kimi baxmaq olar. Belə qarşılıqlı fəaliyyətin əsas hərəkətverici qüvvəsi sosial subyektlərin maraqlarından, məqsədi isə bu maraqların reallaşdırılmasından ibarətdir. Bu baxımdan sosial tərəfdaşlığa vətəndaş cəmiyyəti institutlarının, biznes-sektorun və dövlətin qarşılıqlı fəaliyyət sistemi kimi müəyyənləşdirmək olar ki, bu sistem regio nal inkişaf strategiyasının işlənib hazırlanması və həyata keçirilməsi prosesində bütün sosial subyektlərin maraqlarının aşkara çıxarılması və reallaşdırılmasını

**Məqalə tarixçəsi:**
Göndərilib: 18.02.2019, qəbul edilib: 05.03.2019

təmin etməlidir. Başqa sözlə desək, sosial tərəfdaşlığın başlıca məqsədi əhalinin həyat səviyyəsinin yüksəldilmə-sindən, bütün tərəfdaşlar üçün geniş və bərabər inkişaf imkanlarının yaradılmasından ibarətdir. K.D.Krılov qeyd edir ki, regionların davamlı inkişafına dayanıqlı iqtisadi artım və sosial tərəfdaşlıq çərçivəsində hakimiyyət orqanlarının, biznesin və yerli icmaların qarşılıqlı əməkdaşlığı nəticəsinldə nail olmaq mümkündür [3].

Ümumi regional inkişaf konsepsiyası ən azı aşağıdakı kimi beş qrup maraqları nəzərə almalıdır: dövlət, region, bələdiyyə, sahibkar və vətəndaş maraqları. Birinci iki qrup maraqlar artıq qanunvericilikdə və digər normativ sənədlərdə nəzərə alınır. Bunu müəyyən mənada bələdiyyələr haqqında da demək olar. Sahibkarlıq və vətəndaş maraqlarının reallaşdırılması, xüsusilə bütün beş qrupun maraqlarının birgə əlaqələndirilməsi isə hələlik özünün başlanğıc mərhələsindədir.

Vətəndaş cəmiyyəti institutlarının regional inkişaf strategiyasının işlənib hazırlanmasında və reallaşdırılmasında iştirakı yerli özünüidarəetmə orqanlarının aktivliyi ilə yanaşı həm də ictimai subyektlərin vətəndaş və iqtisadi təşəbbüslərini nəzərdə tutur. Qərbi Avropa öləkələrinin təcrübəsi göstərir ki, bu təşəbbüslərin potensialı kifayət qədər böyükdür və düzgün istifadə olunduqda regional inkişafın mühüm resurslarından biri ola bilər. Bu təşəbbüslər regional inkişafa birbaşa təsir etməklə yanaşı həm də yerli özünüidarəetmə orqanlarının aktivliyinə, dövlət orqanlarının, ilk növbədə regional idarəetmə orqanlarının qərarlarına təsir göstərir. Beləliklə, Azərbacanda ləng də olsa tədricən sahibkarlıq və vətəndaş maraqlarının institutsionallaşması prosesi gedir. Bu prosesin öyrənilməsi və stimullaşdırılması, xarici və yerli təcrübənin regionun konkret şəraitinə uyğunlaşdırılması tələb olunur. Regional inkişaf konsepsiyası bütün sosial tərəfdaşların yaxınlaşdırılması üçün güclü amil olub onların əməkdaşlığı üçün əsas rolu oynayır.(1)

Deməli tərəfdaşlardan hər birinin özünəməxsus maraqları olmasına baxmayaraq regionun bütün sosial qrupları, birlikləri, institutları üçün ümumi, vahid maraqı həmişə müəyyənləşdirmək mümkündür. Bu maraq elə sosial-iqtisadi siyasətin işlənib hazırlanması və reallaşdırılmasından ibarətdir ki, bütövlükdə regionun davamlı və dayanıqlı inkişafını təmin etməklə subyektlərin hər birinin maraqlarının reallaşdırılmasının zəruri şərti və zəmanətçisi olsun. Belə bir siyasətin işlənib hazırlanması, qəbulu və reallaşdırılmasının mexanizmi sosial tərəfdaşlıqdır. Beləliklə, regional səviyyədə strateji planlaşdırma baxımından sosial tərəfdaşlığın başlıca obyekti bütün sosial subyektlərin və institutların strateji maraqlarını nəzərə alan regional inkişaf konsepsiyası olmalıdır. Bu halda sosial tərəfdaşlığın predmeti kimi regional inkişafın bütün istiqamətləri üzrə konsepsiyanı işləyib hazırlayan və reallaşdıran iştirakçıların münasibətləri çıxış edir.(1)

Məsələn, iqtisadi sferada sosial tərəfdaşlığın predmeti sosial subyektəlrin aşağıdakılarla bağlı münasibətləri ola bilər:

- ✓ regionun sənaye potensialının yenidən strukturlaşdırılması;
- ✓ əmək ehtiyatları, istehsal və işçi qüvvəsi, əmək ehtiyatlarının təkrar istehsalı arasında balansın idarə olunması;

- ✓ iş yerləri, əmək bazarı sisteminin yaradılması və inkişaf etdirilməsi, əhalinin məşğulluğuna zəmanətlərin təmin olunması;
- ✓ vətəndaşların əmək hüquqlarının müdafiəsi;
- ✓ əməyin müdafiəsi, ekoloji təhlükəsizliyin təmin olunması və s.

Sosial əməkdaşlığın digər predmetləri istehlak, təhsil, səhiyyə, ekologiya, sosial təminat, ictimai təhlükəsizlik və regional inkişafın digər istiqamətlərində də aşkara çıxarılır. Regional inkişaf strategiyasının işlənib hazırlanması zamanı əsas strateji tərəfdaşlar aşağıdakılar ola bilər:

- ✓ mərkəzi icra hakimiyyəti orqanları (İqtisadiyyat Nazirliyi);
- ✓ yerli icra hakimiyyəti orqanları;
- ✓ yerli özünüidarəetmə orqanları;
- ✓ sahibkarlar və özəl sektorun nümayəndələri;
- ✓ regionda yaşayan sakinlər, müxtəlif ictimai təşkilatlar, təşəbbüskarlar;
- ✓ elmi və informasiya dairələri, kütləvi informasiya vəsitələri.

Əgər regionda sosial tərəfdaşlığın öyrənilməsinə sistemli yanaşmanı tətbiq etsək və regional tərəfdaşlıq sisteminin fəaliyyətinə kompleks şəkildə baxsaq strateji idarəetmə mexanizmi özündə strategiyanın işlənməsi, müzakirəsi və təbliği sxemlərini, həmçinin strateji məqsədlərin və vəzifələrin reallaşdırılmasını təmin edən tədbirlər sistemini birləşdirir ki, belə mexanizm aşağıdakıların olmasını nəzərdə tutur:

- ✓ strategiyanın hazırlanması, təbliği və reallaşdırılmasına nəzarəti həyata keçirən işçi qruplar sistemi;
- ✓ rəsmi statistikanın və xüsusi monitorinq metodikası üzrə aparılan müntəzəm tədqiqatlar hesabına daim yeniləşdirilən strategi informasiya bazası.

Regional inkişaf strategiyası işlənib hazırlanmış və əsaslandırılmış strateji inkişaf istiqamətlərinin məcmusundan ibarət olur. Bu strateji istiqamətlərinin siyahısı müasir sosial-iqtisadi vəziyyəti təhlil etməyə imkan verən bir sıra analitik-informasiya mənbələrinin əsasında xüsusi kollektiv tərəfindən müəyyən edilir. Strateji istiqamətləri müəyyənləşdirərkən innovasiya seminarlarında regionun fəallarını tərəfindən irəli sürülən təkliflər mühüm rol oynaya bilər. Regional sosial tərəfdaşlığın sistemi regionun uyğun sahələrinin, bələdiyyələrin, müəssisələrin sistemləri ilə əlaqəlidir və onlarla qarşılıqlı fəaliyyətdə olur. Sahə səviyyəsi həm region, həm də bələdiyyə səviyyəsində ola bilər.

Eyni zamanda inzibati qurumların rəhbərlərinin, müəssisə rəhbərliərinin, ictimaiyyətin nümayəndələrinin rəyi diqqətlə öyrənilməli və maksimum nəzərə alınmalıdır. Müəssisə rəhbərlərinin inkişaf perspekivləri haqqında rəyinin öyrənilməsi regional iqtisadi inkişaf üçün mühitin yaradılmasının başlanğıc nöqtələrindən biri ola bilər. Araşdırmaya görə strategiyanın işlənib hazırlanmasının məcburi komponentlərindən biri əhalinin anketləşdirilməsindən ibarət olmalıdır.

Nümunə olaraq, regionun strateji inkişaf istiqamətləri kimi aşağıdakılar qəbul oluna bilər:

- ✓ İnvestisiya fəaliyyətinin inkişafı;
- ✓ Əmək ehtiyatlarının inkişafı;
- ✓ Sosial tərəfdaşlıq orqanlarının rolunun artırılması;
- ✓ Dövlət idarəçiliyinin səmərəliliyinin artırılması;

- ✓ Həmkarlar ittifaqları-nın rolunun artırılması;
- ✓ Sahibarların (iş verənlərin) birliyinin rolunun artırılması.

Beləliklə, regional inkişaf strategiyasının islənib hazırlanması və qiymətləndirilməsi prosesinin təhlili belə bir qənaətə gəlməyə imkan verir ki, regionların uğurlu inkişaf strategiyasının hazırlanması və ərazinin perspektiv inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi prosesi subsidiarlıq və əməkdaşlıq prinsipləri əsasında strateji tərəfdaşlıq sisteminin formalaşdırılmasını zəruri edir.

## ƏDƏBİYYAT

1. Hüseynova X. M.-Azərbaycanda regional inkişafin idarə olunmasi problemləri (iqtisad elmləri doktoru elmi dərəcəsi almaq üçün dissertasiya) Bakı 2010
2. Azadov E.H. Regional siyasət və yerli özünüidarəetmə//"Lənkəran regionunun iqtisadi inkişaf problemləri" mövzusunda Respublika simpoziumunun materialları, Lənkəran 2003, s.54-57
3. Крылов К.Д. Социальное партнерство в современных условиях: сравнительно-правовой обзор//Библиотечка профсоюзного активиста.-1998, №4. – стр. 18-24

## РЕЗЮМЕ

**ДИЛСУЗ ГАСЫМОВ**

### НАПРАВЛЕНИЯ ОРГАНИЗАЦИИ ВЗАИМНЫХ СВЯЗЕЙ СУБЪЕКТОВ УПРАВЛЕНИЯ В РЕГИОНАЛЬНОМ РАЗВИТИИ

Для согласования интересов субъектов управления предполагается создание механизмов разработки специальных институтов и процедур способных обеспечить увязку государственной политики с политикой муниципалитетов и хозяйственных субъектов. В статье исследовано формирование системы взаимной деятельности между субъектами управления региональным развитием во время разработки такого механизма согласования интересов.

**Ключевые слова:** Региональное развитие, субъекты управления, государственная политика, увязка, взаимная связь.

## SUMMARY

**DILSUZ GASSIMOV**

### THE ORGANIZATIONAL DIRECTIONS OF MUTUAL RELATIONS OF MANAGEMENT SUBJECTS IN THE REGIONAL DEVELOPMENT

To coordinate interest of management subjects it is considered to launch special institutional bodies and procedures which provide association of state policy with municipalities and private bodies. In this article was studied the mutual operation system between the subject of regional development within forming of mechanism serving to association of interests.

**Key words:** regional development; management subjects; state policy; association; mutual cooperation

*(İqtisad üzrə fəlsəfə doktoru, dosent C.Mahmudov tərəfindən təqdim edilmişdir)*